MANEƏLƏRİN AERONAVİQASİYA QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ PAMFLET

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № PH-AGA-002

Nəşr tarixi: 17 MART 2022

Nəşr № 01

Bakı

DMAA

TƏSDİQ FORMASI

Nüsxələrin sayı sənədin "Yayım siyahısı" - nda göstərilməlidir və çap olunmuş nüsxələr KNvNY İdarəsinin "COPY" nişanı ilə qeydiyata alınmalıdır.

Reg. №:	PH-AGA-002	**CR Reg. № :**	CR --

Maneələrin Aeronaviqasiya Qiymətləndirilməsi üzrə Pamflet

Qüvvəyə minir: 17.03.2022	**Nəşr.:** 1 **Rev.:** 0	**Təsdiq tarixi:** 14.03.2022

DMAA-nın rəsmisi: _____
(imza)

Ad / Soyad: H. Hajiyev

Vəzifə: Dep. Dir.

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT və İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 3

0.3 Sənədin Yayılma Siyahısı 4

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 5

0.5 Anlayışlar 6

0.6 Qısaldılmalar 10

0.7 Sənədə Nəzarət və İdarəedilmə 10

1 GİRİŞ 1

2 AERONAVİQASİYA QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİ 1

2.1 Aeronaviqasiya qiymətləndirməsini zəruri edən səbəblər. 1

2.2 Maraqlı tərəflərin iştirakı 2

2.3 Məlumatların toplanması 2

2.4 Maneənin mümkün təsirlərinin qiymətləndirilməsi 3

2.5 Maneənin mümkün təsirlərinin qiymətləndirilməsi metodologiyaları 3

2.6 Təsirlərin azaldılması üçün tədbirlər 3

2.7 Aeronaviqasiya qiymətləndirməsinin yekun nəticəsi 4

3 MANEƏLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ZAMANI NƏZƏRƏ ALINMALI MƏLUMATLAR 1

3.1 Maneə haqqında məlumatlar 1

3.2 Maneənin təsir göstərdiyi aerodrom haqqında məlumat 1

3.3 Maneənin təsir göstərdiyi səthlər 1

3.4 Uçuş əməliyyatları və prosedurları 1

3.4.1 Cihazla uçuş prosedurları 1

3.4.2 Vizual Uçuş Əməliyyatları (VFR) 2

3.4.3 Fövqəladə vəziyyətlərdə uçuş prosedurları 2

3.4.4 Xüsusi təyinatlı uçuş əməliyyatları 2

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 Səhifələrin Siyahısı

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	17.MAR.2022	00
2	17.MAR.2022	00
3	17.MAR.2022	00
4	17.MAR.2022	00
5	17.MAR.2022	00
6	17.MAR.2022	00
7	17.MAR.2022	00
8	17.MAR.2022	00
9	17.MAR.2022	00
10	17.MAR.2022	00
	Hissə 1	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	17.MAR.2022	00
2	17.MAR.2022	00
	Hissə 2	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	17.MAR.2022	00
2	17.MAR.2022	00
3	17.MAR.2022	00
4	17.MAR.2022	00
	Hissə 3	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	17.MAR.2022	00
2	17.MAR.2022	00

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	Q-Pulse
1	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	DMAA-nın veb-saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	17.MAR.2022	Əmr № 18 14.03.2022	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

0.5 Anlayışlar

N	Anlayışlar	İzahlar
1	**Aerodrom**	Hava gəmilərinin enməsi, qalxmasıvəyerdəhərəkətinin üçün tam vəya qismən istifadəedilən, yaxud istifadəedilməsi nəzərdətutulan,torpaq vəsu səthininmüəyyən sahəsi(hər hansı tikililər, qurğular vəavadanlıq daxil olmaqla).
2	**Aerodrom istismarçısı**	Sertifikatlaşdırılmış aerodromlarda, Aerodrom Sertifikatının sahibi mənasında başa düşülür.
3	**Aerodromun səviyyəsi**	Enmə sahəsinin (landing area) ən yüksək nöqtəsinin səviyyəsi
4	**Aerodromdakı qurğu və avadanlıqlar (Aerodrome facilities and equipment)**	Aerodromun sərhədləri daxilində və ya sərhədlərindən kənarda yerləşən, hava gəmisinin uçub gəlməsi, yola düşməsi və ya yerdə hərəkəti üçün düzəldilmiş və ya quraşdırılmış və işlək vəziyyətdə saxlanılan hər hansı vasitə və ya avadanlıq kimi başa düşülür.
5	**Aerodromun kartoqrafik məlumatları**	Aviasiyada istifadə edilməsi məqsədilə aerodromun kartoqrafik məlumatlarının hazırlanması üçün toplanan məlumatlar. *Qeyd: Aerodromun kartoqrafik məlumatları istifadəçinin vəziyyətdən daha yaxşı xəbərdar olması, yerüstü naviqasiya əməliyyatları (surface navigation operations), təlim, sxemlərin qurulması (charting) vəplanlaşdırma məqsədilətoplanır.*
6	**Aerodromun kartoqrafik məlumatlar bazası**	Aerodromun sistemləşdirilmiş və strukturlaşdırılmış məlumatlar məcmusu (structured data set) formasında təqdim edilmiş kartoqrafik məlumatlar toplusu.
7	**Aerodromun nəzarət nöqtəsi**	Aerodromun nəzarət nöqtəsi Aerodromun coğrafi mövqeyini müəyyən edən nöqtə.
8	**Aeronaviqasiya Məlumatı Nəşri**	Aeronaviqasiya Məlumatı Xidmətləri tərəfindən vəonun nəzarəti altında dərc edilən, aeronaviqasiya üçün zəruri olan və davamlı xarakter daşıyan aeronaviqasiya məlumatlarını özündə cəmləyən nəşr mənasında işlədilir.
9	**Aeronaviqasiya Məlumatı Xidmətləri (Aeronautical Information Services)**	Aeronaviqasiya məlumatı və aeronaviqasiyanın təhlükəsizliyi, müntəzəmliyi və effektivliyinin təmin edilməsinə xidmət edən müəyyən edilmiş əhatə dairəsinin hüdudları çərçivəsində təşkil edilən xidmətlər mənasında işlədilir. Uyğun olduqda, aeronaviqasiya xidmətlərinin və onların aeronaviqasiyanın təhlükəsizliyi, müntəzəmliyi və effektivliyi üçün zəruri olan əlaqədar prosedurlarının mövcudluğuna dair məlumatları təmin etmək üçün nəzərdə tutulan işçi heyəti və vasitələri buraya daxil edilir.
10	**AİP-ədüzəlişlər (AIP amendment)**	Aeronaviqasiya Məlumatı Nəşrində göstərilən məlumata daimi xarakter daşıyan düzəlişlər nəzərdə tutulur.
11	**AİP-ə Əlavələr (AIP supplement)**	Aeronaviqasiya Məlumatı Nəşrində göstərilən məlumata müvəqqəti xarakter daşıyan düzəlişlər mənasını daşıyır. Bu düzəlişlər xüsusi əlavə səhifələrin daxil edilməsi vasitəsilə edilir.

12	**Astana (Threshold)**	Uçuş-enmə zolağının eniş üçün yararlı olan hissəsinin başlanğıcı.
13	**Perron**	Yerüstü aerodromun sərnişinlərin borta minməsi və ya bortdan enməsi, yükün vəya poçtun hava gəmisinə yüklənməsi vəya hava gəmisindən boşaldılması, yanacaqdoldurma, dayanacaq, yaxud texniki xidmət məqsədilə hava gəmilərinin yerləşdirilməsi üçün ayrılmış müəyyən ərazisi.
14	**Tamamlanmamış enmə (Balked Landing)**	Maneələrin üzərindən uçub keçmənin mütləq/nisbi hündürlüyündən (OCA/H) aşağıda yerləşən istənilən nöqtədə gözlənilməz olaraq yarıda dayandırılmış enməmanevri.
15	**Maneəsiz zolaq (Clearway)**	Təyyarənin müəyyən edilmiş hündürlüyə ilkin qalxmasının bir hissəsini həyata keçirə bilməsi üçün uyğun yer kimi seçilmiş vəya hazırlanmış, yerin vəya suyun səthində yerləşən və aerodrom istismarçısı tərəfindən nəzarət edilən müəyyən düzbucaqlı sahə.
16	**Bəyanedilmiş məsafələr (Declared distances)**	a) Havaya qalxma zamanı sürət yığma məsafəsinin uzunluğu (TORA). Uçuş-enməzolağının havaya qalxma yerinə yetirən təyyarənin havaya qalxmaq məqsədilə yerdə hərəkəti üçün mövcud və yararlı elan edilmiş uzunluğu. b) Havaya qalxmanın mövcud distansiyası (TODA). Havaya qalxma zamanı sürət yığma məsafəsinin mövcud uzunluğu iləmaneəsiz zolağın (belə zolaq nəzərdə tutulubsa) uzunluğunun cəmi. c) Dayandırılmış havaya qalxmanın mövcud distansiyası (ASDA). Havaya qalxma zamanı sürət yığma məsafəsinin mövcud uzunluğu ilə son təhlükəsizlik zolağının uzunluğunun (stopway) (belə zolaq nəzərdə tutulubsa) cəmi başa düşülür. d) Mövcud enmə məsafəsi (LDA). Enən təyyarənin yerdəqaçışı üçün mövcud vəyararlı bəyan edilmiş UEZ-nın uzunluğu.
17	**Mülki Aviasiya Agentliyinin Direktoru**	Azərbaycan Respublikası Mülki Aviasiya Agentliyinin direktoru dedikdə, Aviasiya haqqında Azərbaycan Respublikasının Qanununda Azərbaycan Respublikası Mülki Aviasiya Agentliyinin rəhbəri kimi təqdim olunan və bu vəzifəni icra edən hər hansı şəxs nəzərdə tutulur.
18	**Yeri dəyişdirilmiş astana**	Uçuş-enməzolağının ən sonunda (extremity of a runway) yerləşməyən astana.
19	**Kövrək obyekt (Frangible object)**	Hava gəmisinə minimum təhlükə törətməsi məqsədilə zərbənin təsiri nəticəsində sınması, deformasiyaya uğraması və ya əyilməsin əimkan verən şəkildə hazırlanmış olan az kütləyə malik obyekt. *Qeyd: Kövrəkliyin təmin edilməsi üçün dizayna dair təlimat xarakterli göstəriş Aerodromun Dizaynına dair Təlimatda (Hissə 6-da) qeyd olunub*

20	**Geodeziya koordinatları sistemi**	Qlobal hesablama/koordinat sisteminə münasibətdə yerli hesablama sisteminin yerinin və oriyentasiyasının müəyyən edilməsi üçün tələb olunan minimum parametrlər dəsti.
21	**İnsan amiliprinsipi (Human Factors Principle)**	Aviasiya sahəsinə aid dizayn, sertifikatlaşdırma, təlim, əməliyyatlar və texniki xidmət məsələlərinə tətbiq edilən vəinsanın fəaliyyət imkanları nəzərə alınmaqla, insanla sistemin digər komponentləri arasında təhlükəsiz interfeys əlaqəsinin yaradılmasına xidmət edən prinsiplər.
22	**İnsident (Incident)**	Uçuş əməliyyatının təhlükəsizliyinə təsir edən və ya təsir edə biləcək və hava gəmisinin istismarı ilə əlaqədar olan, qəzadan fərqli aviasiya hadisəsi.
23	**Cihazlar üzrə enmə üçün təchiz olunmuş uçuş-enmə zolağı (Instrument runway)**	Hava gəmilərinin cihazlar üzrə enməyə giriş sxemlərindən istifadə etməklə uçuş yerinə yetirmələri üçün nəzərdə tutulmuş aşağıda göstərilən uçuş-enmə zolaqlarından biri: a) Qeyri-dəqiq enməyəgiriş üçün nəzərdə tutulmuş uçuş-enməzolağı. Ən azı birbaşa enməyə girişə adekvat olan istiqamətləndirmə təmin edən (directional guidance adequate for a straight-in approach), vizual və qeyri-vizual vasitələrlə təchiz edilmiş uçuş-enmə zolağı. b) I kateqoriyadan olan dəqiq enməyə giriş üçün təchiz edilmiş uçuş-enmə zolağı. (Precision approach runway, category I.) İLS və/vəya MLS iləvəqərar qəbul etmənin 60 m.-dən az olmayan (200 fut) nisbi hündürlüyü, yaxud 800 m.-dən az olmayan görünmə, ya da uçuş-enmə zolağının 550-m-dən az olmayan görünmə hüdudu (runway visual range) ilə əməliyyatlar üçün nəzərdə tutulmuş vizual köməkçi vasitələrin təmin edildiyi, təchiz edilmiş uçuş-enmə zolağı. c) II kateqoriyadan olan dəqiq enməyəgiriş üçün təchiz edilmiş uçuş-enmə zolağı. (Precision approach runway, category II.) İLS və/və ya MLS ilə və qərar qəbul etmənin 60 m.-dən az (200 fut) olan amma 30 m.-dən (100 fut) az olmayan nisbi hündürlüyü, ya da uçuş-enmə zolağının 300 m.-dən az olmayan görünmə hüdudu (runway visual range) ilə əməliyyatlar üçün nəzərdə tutulmuş vizual köməkçi vasitələrin təmin edildiyi, təchiz edilmiş uçuş-enməzolağı. d) III kateqoriyadan olan dəqiq enmə yəgiriş üçün təchiz edilmiş uçuş-enmə zolağı. (Precision approach runway, category III.) Vizual və qeyri visual vasitələr ilə xidmət göstərilən yerüstü əməliyyatlar üçün qərar qəbul etmənin 30m-dən (100ft) az və ya qərar qəbul etmə hündürlüyü olmayan vəUçuş Enmə Zolağında görünüş məsafəsi 300m-dən az olan, vəya Uçuş EnməZolağında görünüş məsafəsi limiti olmayan B tipli instrumental yaxınlaşma üçün nəzərdətutulan Uçuş EnməZolağı.Qeyd 1 –Vizual vasitələrin təmin edilmişmövcud qeyri-vizual vasitələrin miqyasına (scale) uyğun olması zəruri deyil. Vizual vasitələrin seçilməsi meyarı əməliyyatların yerinəyetirilməsi üçün nəzərdətutulan şərtlərdir.Qeyd 2 –Cihazlarla enməyəgiriş əməliyyatları üçün İCAO Əlavə6-ya bax.

24	**Enməsahəsi (Landing area)**	Hərəkət sahəsinin hava gəmisinin enməsi vəya havaya qalxması üçün nəzərdə tutulan hissəsi.
25	**Hərəkət sahəsi (Movement area)**	Aerodromun hava gəmisinin havaya qalxması, yerə enməsi və yerdə sürülməsi üçün istifadə edilən, manevr sahəsi ilə perronun daxil olduğu hissəsi.
26	**Cihazlarla enməyəgiriş üçün təchiz edilməmiş uçuş-enmə zolağı (Non-instrument runway)**	Hava gəmisinin vizual enməyə giriş prosedurlarından istifadə edən hava gəmilərinin uçuşu üçün nəzərdə tutulmuş uçuş-enmə zolağı. Qeyd: Vizual meteoroloji şəraitlər (VMC) Əlavə 2-nin 3-cü fəslində təsvir olunur.
27	**NOTAM və ya Pilot üçün Bildiriş (NOTAM or Notice to Airmen)**	Elektrorabitə vasitələri ilə yayılan, hər hansı aeronaviqasiya avadanlığının qurulmasına, vəziyyətinə və dəyişilməsinə aid informasiyadan, xidmətdən, qaydalardan və ya uçuşların yerinə yetirilməsi üçün vacib olan təhlükəli vəziyyət haqqında heyətə vaxtında çatdırılması olan məlumatdan ibarət bildiriş.
28	**Maneə (Obstacle)**	Hər hansı hərəkətsiz (müvəqqəti və ya daimi) və ya mobil obyetklər, yaxud onların hissələri, hansı ki: a) hava gəmilərinin yerüstü hərəkəti uçub nəzərdə tutulmuş məkanda yerləşdirilib: və ya b) uçuşda olan hava gəmilərinin qorunması üçün müəyyən edilmiş səthin üzərindir; vəya c) müəyyən edilmiş belə səthlərdən kənarda yerləşir və qiymətləndirmənin nəticəsinə uyğun olaraq aeronaviqasiya üçün təhlükə törədir.
29	**Maneələrdən azad zona (OFZ) (Obstacle free zone)**	Enməyə girişin daxili səthinin, daxili tranzit səthlərinin və yarıda dayandırılmış eniş zamanı ikinci dövrəyə keçidin səthinin, eləcədə üzərində aeronaviqasiya məqsədlərinə uyğun olaraq tələb olunan az çəkili və kövrək maneədən başqa heç bir hərəkətsiz maneə olmayan, bu səthlərlə məhdudlaşan uçuş zolağının bir hissəsi üzərindəki hava məkanı.
30	**Maneələrin məhdudlaşdırıldığı səthlər (Obstacle limitation surfaces)**	Hava gəmisi ilə yerinə yetirilməsi nəzərdətutulan əməliyyatların təhlükəsiz qaydada icra edilməsi və aerodromun ətrafındakı maneələrin çoxalması səbəbindən onun istifadəyə yararsız olmasının qarşısının alınması məqsədilə maneələrdən azad saxlanılmalı olan, aerodromda və onun ətrafında yerləşən hava məkanının böyüklüyünü müəyyən edən bir sıra səthlər deməkdir.
31	**Ortometrik (nisbi) hündürlük**	Normalda MSL (orta dəniz səviyyəsi) səviyyəsi kimi göstərilən, Geoidə aid nöqtənin hündürlüyü.
32	**Təhlükəsizliyinin idarəedilməsi sistemi (Safety Management System) (SMS)**	Zəruri təşkilati struktur, hesabat vermə öhdəliyi,siyasətlər və qaydalar daxil olmaqla, təhlükəsizliyin idarə edilməsinə sistemli yanaşma.
33	**Nişan (Sign)**	a) Daimi məlumat nişanı. Yalnız bir məlumatı əks etdirən nişan. b) Dəyişkən məlumat nişan. Qabaqcadan müəyyən edilmiş bir neçə məlumatı əks etdirəbilən vəya heç bir məlumat göstərməyən (hansı uyğun olarsa) nişan.

0.6 Qısaldılmalar

AIP	Aeronaviqasiya Informasiya Nəşri
AAR-AGA-001	Azərbaycan Aviasiya Qaydaları – Aerodrom Standartları
ICAO	Beynəlxalq Mülki Aviasiya Təşkilatı
PANS-OPS	Aeronaviqasiya Xidmətləri prosedurları – Hava Gəmisi Əməliyyatları
IFR	Cihazlarla Uçuş Qaydaları
VFR	Vizual Uçuş Qaydaları
UEZ	Uçuş Enmə Zolağı
SY	Sürmə Yolu
PAPI	Dəqiq Enməyə Giriş Trayektoriyasının Göstəricisi

0.7 Sənədə Nəzarət və İdarəedilmə

Bu sənəd A4 ölçüsü kağızvərəqələrdə çapedilmişdir. Elektron (PDF) fayllar isə icazə verilməmiş dəyişikliklərindən qorunmaq məqsədi ilə parolla boklanılıb.

Bu sənəd müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Bütün müvafiq işçi heyəti bütün düzəlişləri ilə tanış olmalıdır.

Bu sənəd "Sənədlərə nəzarət" prosedurun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

1 GİRİŞ

Təhlükəsiz uçuş əməliyyatlarının yerinə yetirilməsi ICAO Əlavə 14, PANS-OPS və AAR-AGA-001-də göstərilən səthlərin mümkün pozuntularının daimi monitorinqini və qiymətləndirilməsini tələb edir. Bu qiymətləndirmə aerodromlar ətrafında yeni tikililərin və ya hava hərəkəti idarə edilməsi avadanlıqlarının təhlükəsiz inteqrasiyasını asanlaşdırmalıdır. Baxmayaraq ki, adları çəkilən qaydalar ilk baxışdan əsasən məhdudlaşdırıcı xarakter daşıyır, ancaq bunlar yeni tikililərin aviasiyaya mümkün təsirlərinin sistematik qiymətləndirilməsi və uçuş əməliyyatlarının təhlükəsizliyinin pozulmadığını nümayiş etdirməsi şərti ilə ətraf ərazilərin inkişafı üçün çevik yanaşmaya imkan yaradır.

Bu Təlimatın hazırlanmasının əsas məqsədi aerodrom istismarçılarının tələblərinə cavab verə biləcək texniki həll yollarını tapmaqda kömək etmək və bu sahədə işlərin sistematik görülməsinə yardımçı olmaq üçün qabaqcıl təcrübəni tətbiq etməkdən ibarətdir. Təlimatdan həmçinin hava məkanı istismarçıları, uçuş yolları layihələndiriciləri və digər maraqlı tərəflər istifadə edə bilər.

Aeronaviqasiya qiymətləndirməsi Azərbaycan Aviasiya Qaydaları – Aerodrom Standartlarında qeyd edilən standartlardan kənara çıxma hallarında aparıla bilməz.

Qiymətləndirmə zamanı aparılacaq texniki təhlil uçuşların təhlükəsizliyinin başqa həll yolları ilə əldə oluna biləcəyinə əsaslanaraq, standartlardan kənaraçıxmaların əsaslandırılmasını təmin etməlidir. Bu, ümumiyyətlə, standartı pozan problemin düzəldilməsi xərclərinin həddən artıq çox olduğu, lakin problemin təhlükəli təsirlərinin həm praktiki, həm də əsaslandırılmış həllər təklif edən bəzi prosedur vasitələri ilə aradan qaldırıla biləcəyi hallarda tətbiq edilir.

Əldə edilmiş nəticələrinin tətbiqinin səmərəliliyini artırmaq üçün məlumatlar həm uçuş heyətinə əlçatan olması üçün AİP-də dərc edilməli, həm də müvafiq tənzimləyici orqan tərəfindən standartlardan kənara çıxmalar şəklində dərc edilməlidir.

Aeronaviqasiya qiymətləndirməsinin nəticələrindən asılı olaraq aerodromda nişanlanmada, işarələnmədə, cihaz və qurğularda, infrastrukturda, təhlükəsizliyin idarə edilməsi və xüsusi əməliyyatlar üzrə prosedurlarda, təşkilati məsələlərdə dəyişikliklərin edilməsi zəruri sayıla bilər.

Hər bir qiymətləndirmə nəticəsi xüsusi bir hal üçün aparıldığına görə bu nəticələr digər vəziyyətlərdə birbaşa tətbiq edilə bilməz.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

2 AERONAVİQASİYA QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİ

Aeronaviqasiya qiymətləndirməsi prosesini aşağıdakı mərhələlərə bölmək olar:



Sxem 1. Aeronaviqasiya qiymətləndirməsi prosesi.

Sxem 1-də göstərilən mərhələləri keçdikdən sonra aşağıdakı mərhələlər izlənilir:

1. Aeronaviqasiya qiymətləndirməsinin nəticələrinin yekun rəyi qəbul və ya imtina edilir.
2. Nəticələr aidiyyatı üzrə bütün maraqlı tərəflərə bildirilir.
3. Səlahiyyətli orqan tərəfindən mütəmadi nəzarət həyata keçirilir.

2.1 Aeronaviqasiya qiymətləndirməsini zəruri edən səbəblər.

Aşağıda göstərilən əsas səbəblərə görə aeronaviqasiya qiymətləndirməsinin aparılması zərurəti yaranır:

- Maneələri məhdudlaşdırıcı səthləri və ya digər maneələrdən qorunma səthlərinin pozulması;
- Maneələri məhdudlaşdırıcı səthlərin əhatə dairəsindən kənarda olan, ancaq yer səthindən hündürlüyü 100 metrdən çox olan obyektlərin layihələndirilməsi zamanı;
- Məhdudlaşdırıcı səthləri keçməyən, ancaq aeronaviqasiya avadanlıqlarına və uçuş

əməliyyatlarına mümkün təsirləri ola biləcək obyektlər (yüksək gərginlikli elektrik xətləri, tüstü və ya toz ixrac edən qurğular və s).

2.2 Maraqlı tərərflərin iştirakı

Aeronaviqasiya qiymətləndirmələri proseslərinə bütün maraqlı tərəflərin cəlb edilməsi çox vacibdir. Bu tərərflər aşağıda göstərilənlər ola bilər və siyahı prosesin xarakterindən asılı olaraq dəyişdirilməlidir:

- Obyektin inşası (və ya qurulması) üçün müraciət edən tərərf
- Aerodrom istismarçısı
- Aeronaviqasiya təminatçısı
- Uçuş prosedurları hazırlayanlar
- Hava gəmiləri istismarçıları
- Səlahiyyətli təşkilatlar (mülki aviasiya tənzimləyicisi, ərazi planlama, hərbi və s)
- Digərləri.

2.3 Məlumatların toplanması

Aeronaviqasiya qiymətləndirilməsinin hərtərəfli və təkmil aparılması üçün inşası (və ya qurulması) nəzərdə tutulmuş obyektə və aerodroma dair dəqiq və lazımlı məlumatlar ilə təmin olunmalıdır. Aerodroma dair aşağıdakı və digər vacib məlumatları aid etmək olar:

- Milli qayda və təlimatlar;
- Aerodromdan istifadə olunma (gecə/gündüz; IFR / VFR);
- Vizual aeronaviqasiya vasitələrinin yeri və tipi;
- UEZ və SY xarakteristikaları;
- Aerodromdan istifadə edən hava gəmilərinin tipləri;
- Mütəmadi uçuşların miqdarı;
- Aerodroma xas prosedurlar;
- Uçuş prosedurları (mövcud və gələcəkdə layihələndirilməsi nəzərdə tutulan);
- Fövqəladə hallar üzrə prosedurlar;
- Maneə və yer səthinin (və bitki örtüyünün) mütləq və nisbi hündürlükləri;
- Digər məlumatlar.

Həmçinin məlumatların toplanması prosesində inşa ediləcək (və ya qurulacaq) obyektə aid aşağıdakı məlumatların nəzərə alınması vacibdir:

- Nəzərdə tutulan obyektin yeri;
- Obyektin növü (bina, qaldırıcı kran, antena, elektrik xətti və s);
- Obyektin ölçüləri və ən yüksək nöqtəsinin mütləq və nisbi hündürlükləri;
- Bərkidilmiş obyektin kövrəkliyi;
- Obyektin ərazidə mövcudluq müddəti (daimi və ya müvəqqəti);

- Obyektin işıqlandırılması və işarələnməsi;
- Yaxınlıqdakı digər maneələrin xarakteri;
- Maneənin təsirlərini azaltmaq üçün görülmüş mümkün tədbirlər.

2.4 Maneənin mümkün təsirlərinin qiymətləndirilməsi

Aeronaviqasiya qiymətləndirilməsi zamanı maneənin mümkün təsirlərini öyrənmək üçün müvafiq məlumatlar toplanmalı və qiymətləndirmə zamanı nəzərə alınmalıdır. Bu təsirləri öyrənərkən aşağıda qeyd olunanların nəzərə alınması tövsiyə olunur.

Ilk olaraq maneə tərəfindən keçilmiş səthin tətbiq edilməsinin məqsədi müəyyən edilir və pozulmaların həddi araşdırılır:

- Bura bir və ya bir neçə səthin pozulması və hər pozulan səthin ayrılıqda qiymətləndirilməsinin aparılması;

- Qiymətləndirmə aparılan zaman maneənin vizual və instrumental uçuş prosedurlarına və digər uçuş ilə bağlı əməliyyatlara təsirlərinin öyrənilməsi və;

- Əlavə olaraq uçuş zolaqları, UEZ sonundakı təhlükəsizlik əraziləri, vizual işıq sistemlərinin qorunma səthləri daxildir.

2.5 Maneənin mümkün təsirlərinin qiymətləndirilməsi metodologiyaları

Qarşıya qoyulan problemdən asılı olaraq və əldə edilmiş məlumatlardan istifadə edərək müxtəlif kəmiyyət və keyfiyyət qiymətləndirilməsi metodları tətbiq edilə bilər.

Bu metodlara aşağıda sadalananları missal göstərmək olar:

- Cihazla uçuş prosedurlarının analizi;

- Vizual uçuş prosedurlarının analizi;

- Fövqəladə vəziyyətlərdə uçuş prosedurları və hava gəmisinin uçuş imkanları;

- Görünüş məsafəsinin analizi;

- Kölgələnmə;

- Toqquşma riskinin modelləşdirilməsi (Collision Risk Modelling);

- Aparılmış sınaq uçuşları və simulyasiyalar;

- Qiymətləndirməyə cəlb edilmiş mütəxəsis rəyləri;

- və qiymətləndirmənin aparılması zamanı uyğun bilinən digər metod.

2.6 Təsirlərin azaldılması üçün tədbirlər

Aeronaviqasiya qiymətləndirməsi aparılarkən maneənin maraqlı tərəflərə mümkün təsirlərinin azaldılması qarşıya qoyulan əsas məsələdir. Ancaq məqbul olan bəzi yumşaldıcı tədbirlər uçuş əməliyyatlarına göstərdiyi təsirlərə görə arzuolunan olmaya bilər.

Mümkün ola biləcək təsirləri azaltmaq üçün aşağıdakı tədbirləri görmək olar:

- Aerodrom infrastrukturunda müəyyən dəyişikliklər aparmaq (UEZ astanasının yerini dəyişdirməklə, qlissadanın və PAPI-nin bucaq meylliyini dəyişməklə.);

- Uçuş prosedurlarını yenidən hazırlamaq (uçuş yüksəkliyini, yaxınlaşmanın və ya qalxmanın minimumlarını artırmaq və s.);

- Aeronaviqasiya xəritələrinin yenidən tərtib edilməsi;
- İşarələnmə və işıqlanmanın dəyişilməsi;
- Təhlükəsizliklə bağlı dəyişdirilmiş məlumatları maraqlı tərəflərə çatdırmaq;
- və digərləri.

2.7 Aeronaviqasiya qiymətləndirməsinin yekun nəticəsi

Aeronaviqasiya qiymətləndirmələri aparıldıqdan sonra aşağıda qeyd edilən nəticələrə gəlmək olar:

- Maneənin qəbul edilmiş standartlar çərçivəsində heç bir təsiri yoxdur və qəbul ediləndir;
- Maneə qəbul ediləndir, çünki təsirləri azaltmaq üçün tədbirlər görülüb;
- Əgər maneənin təsirlərini azaltmaq üçün tədbirlər görülərsə qəbul ediləndir;
- Maneə qəbul edilə bilməz, çünki onun səbəb olduğu riskləri azaltmaq mümkün deyil.

3 MANEƏLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ ZAMANI NƏZƏRƏ ALINMALI MƏLUMATLAR

Maneələrin aeronaviqasiya qiymətləndirilməsi zamanı bir sıra vacib məlumatlar toplanmalıdır və diqqətə alınmalıdır.

3.1 Maneə haqqında məlumatlar

- Maneənin yerləşməsi;
- Yer səthindən yüksəkliyi (metrlə);
- Dəniz səviyyəsindən yüksəkliyi (metrlə);
- Maneənin növü (bina, qüllə, külək trubini və s.);
- Kövrəkliyi;
- Ölçüləri;
- Maneənin işıqlandırılması və işarələnməsi haqqında məlumat;
- Digər mövcud maneələr;
- Maneənin mövcud olmaq müddəti (daimi, müvəqqəti və s.);
- Maneənin xarakteri (bərkidilmiş, yerdəyişən və s.);
- və digər vacib hesab olunacaq məlumatlar.

3.2 Maneənin təsir göstərdiyi aerodrom haqqında məlumat

- Aerodromun ICAO kodu;
- Aeronaviqasiya qurğuları;
- Aerodroma xas olan prosedurlar;
- Aerodromdan istifadə (cihazla və ya vizual uçuş, gündüz və ya gecə);
- Vizual vasitələr;
- Əməliyyatları keçirən hava gəmiləri;
- UEZ xarakteristikaları (məsələn: kurs, istiqamət, ölçülər, tip);
- UEZ ətrafının hava məkanı haqqında məlumatlar.

3.3 Maneənin təsir göstərdiyi səthlər

- Maneənin məhdudlaşdırıcı səthi keçməsi haqqında məlumat;
- Məhdudlaşdırıcı səthin pozulmasının ölçüləri;
- Məhdudlaşdırıcı səthin məqsədi.

3.4 Uçuş əməliyyatları və prosedurları

3.4.1 Cihazla uçuş prosedurları

- Cihazla yaxınlaşma prosedurları;
- Cihazla qalxma prosedurları;

- Standart yaxınlaşma yolları (STAR);

- Minimum sector hündürlükləri və terminal yaxınlaşma hündürlükləri (Minimum Sector altitudes – MSA and terminal arrival altitudes –TAA);

- Gözləmə yeri işarələri;

- Hava hərəkətini idarəetməsinin minimum hündürlükləri;

- Hava hərəkəti xidməti yolları.

3.4.2 Vizual Uçuş Əməliyyatları (VFR)

- Vizual yaxınlaşmalar;

- Vizual qalxmalar;

- Vizual uçuş yolları və məlumat vermə nöqtələri.

3.4.3 Fövqəladə vəziyyətlərdə uçuş prosedurları

-AIP-də dərc edilmiş uçuş prosedurundan hava gəmisi istismarçısının fövqəladə və ya standartdan kənar hallar üçün prosedurları fərqlənirsə aeronaviqasiya qiymətləndirməsi aparılarkən həmin fərqliliklər nəzərə alınmalıdır.

3.4.4 Xüsusi təyinatlı uçuş əməliyyatları

- Təcili tibbi yardım üçün helikopter uçuşları;

- Polis və mülkü müdafiə uçuşları;

- Hərbi təyinatlı uçuşlar.